# EKOLOGIYAYA DAIR NƏ OXUMALI

*(YUXARI SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN ƏDƏBİYYAT SİYAHISI)*

*Tərtib edən: Əhmədova S.Bizim ünvan: Səməd Vurğun küçəsi, 88.Telefon: 597 08 79Email: www.clb.az*

*BAKI – 2012*

Azərbaycanın ekoetik problemləri: elmi, hüquqi, mənəvi aspektlər. - Bakı : Elm, 2004. - 380 s. : xəritə, il.
Bu monoqrafiyada "ekoetika" anlayışına fərqli elmi münasibət açıqlanmış və ekoetika cəmiyyətlə təbiət arasında sosial, iqtisadi, hüquqi, mənəvi və digər münasibətlər sistemi kimi təqdim olunmuşdur.

Babayev M. Ekoloji genetika. - Bakı : Nurlar, 2004. - 208 s. : şək.
Dərslikdə ekoloji genetikanın bir sıra problemlərindın bəhs edilmişdir. Dərslikdə ətraf mühiti çirkləndirən fiziki və kimyəvi mutagenlərin zərərli təsirinin qarşısını alan bilən antimutagen xassəli antioksidantlar haqqında məlumat verir.

Beşdilli İzahlı Ekologiya Lüğəti = Five - Lingual Ecological Explanatory Dictionary = Пятиязычный Экологический Толковый Словарь. - Bakı : Təknur, 2004. - 188 s.
Bu lüğət Azərbaycan, gürcü və erməni dillərində terminlərin ingilis və rus dillərində uyğun mənasının verilməsi ilə çap edilir. Lüğət konsensus, fundamentalizm, kompleksli yanaşma, dilin sadəliyi və lakonikliyi, regional əlamətlərini və geosistem təfəkkürünü nəzərə almaqla, dünya standartlarına maksimal yanaşma prinsirləri əsasında tərtib edilmişdir.

Ələkbərov U. Ekologiya. Dünyamızın bu günü və sabahı. - Bakı : Ayna Mətbu Evi, 2000. - 80 s. : rəng.il. - (Ayna Uşaq Ensiklopediyası).
Bu kitabda Yer kürəsinin yaranması və onun quruluşu, planetimizin əhalisi, dağları, düzləri, dənizləri, təbii sərvətləri, bir sözlə, öz doğma evimiz-planetimiz barədə kifayət qədər maraqlı bilgilərə yiyələnmək imkanı var.

İsmayılov Ç.Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası. - Bakı : Ayna Mətbu Evi, 2005. - 117 s. : rəngli.şək.
Bu kitabda Xəzər dənizinin yaranmasından, Xəzərin hüquqi statusu problemi və ekoloji məsələlərinin həllindən, xəzər sahil ərazilərinin mənimsənilməsindən, xəzər regionunda nəqliyatın inkişafından və təbii sərvətlərindən bəhs olunur.

Həsənli O. Şagirdlərin ekoloji tərbiyəsi. - Bakı : Mütərcim, 2007. - 212 s. : cədv., rəng.foto.
Kitabdan məktəbdənkənar tərbiyə müəssisələrinin tərbiyəçiləri, orta məktəb müəllimləri, bakalavr və magistr pillələrində təhsil alan tələbər, aspirantlar, dissertantlar, doktorantlar da istifadə edə bilərlər.

Мансуров А. Экология реки Куры и  водоемов ее бассейна : научное издание. - Баку : Красный восток, 1996. - 160 с.
Цель книги - довести до внимания населения бассейн р.Куры реальные и неопровержимые научные факты, убеждающие в том, что настала пора сообща спасать р. Куру.

Novruz Z. Bəxt Aynası : Xəzər haqqında oçerklər. - Bakı : Şirvannəşr, 2001. - 106 s. : şək.
"Bəxt Aynası" kitabı müəlliflərin Xəzərin hüququ mühafizəsi üzrə apardıqları uzun illərin müşahidələri və iş təcrübəsinin məcmuudur. Kitab şagirdlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Orhus konvensiyası / REM Qafqaz. - Bakı : [s. n.], 1998. - 32 s.
Orhus Konvensiyası "Avropa üçün ətraf mühit" prosesinin ən mühüm nailiyətidir. Konvensiyaya əsasən hər bir insan yaxud təşkilat ətraf mühitin mühafizəsi haqqında məlumat tələb etmək, ətraf mühitin mühafizəsi üzrə qərarlar qəbul olunması prosesində iştirak etmək, özünün ətraf mehitin mühafizəsi hüquqlarının müdafiə olunması üçün məhkəməyə müraciət etmək hüququna malikdir.